Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən məktəblərdə keyfiyyətin monitorinqinin aparılması məqsədilə elan olunan “Məktəb inspektoru” vakansiyası üzrə növbəti yazılı imtahan keçirilib.

Namizədlərin sahə üzrə biliklərinin yoxlanılması məqsədilə 3 mart tarixində keçirilmiş imtahanda ümumilikdə 72 namizəd iştirak edib. Həmin namizədlərdən 50-si qadın, 22-si isə kişi olub.

Bir saat davam edən imtahanın nəticələrinə əsasən, 47 nəfər nəzərdə tutulan keçid balından aşağı, 25 nəfər isə yuxarı bal toplayıb.

İmtahandan uğurla keçən namizədlər 3 aprel tarixinədək müsahibədə iştirak etmək üçün Agentliyə dəvət olunacaqlar.